UOT 339.564, 330.362

Pəri Əmirəhməd qızı HƏSƏNOVA
Professor, Bakı Dövlət Universiteti, “İqtisadiyyat” kafedrası
E-mail: perihesenova80@gmail.com,

Gülnar Qurban qızı HÜSEYNOVA
Müəllim, Bakı Dövlət Universiteti, “İqtisadiyyat” kafedrası
E-mail: gulnarhuseynova.bsu@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.003.037

AZƏRBAYCANDA İXRAC FƏALİYYƏTİNİN MAKROİQTİSADİ SABİTLİYƏ TƏSİRİNİN TƏNZİMLƏNMƏSİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycanda ixrac fəaliyyətinin makroiqtisadi sabitliyə təsirinin tənzimlənilməsini elmi, analitik, statistik metodların köməkliyi ilə araşdırmaqdır. İxracın həcmində baş verən dəyişikliklər ilə əsas makroiqtisadi göstəricilər arasında mütənasibliyin olub-olmadığını aşkara çıxarmaq və onun əsas sosial-iqtisadi nəticələrini tədqiq etməkdir.

Tədqiqatın metodologiyası - Tədqiqatın aparılması zamanı həm institusional mexanizmlərdən istifadə edilməsi, həm də statistik göstəricilərin təhlilindən bəhrələnilməsi əsas istiqamət kimi seçilmişdir. Empirik hissənin işlənilməsi zamanı müxtəlif ofis proqramlarından, habelə diaqnostik təhlil aparılması üçün Gretl proqramından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Tədqiqatın yerinə yetirilməsindən əldə edilən nəticələrdən bu sahədə gələcəkdə aparılması nəzrədə tutulan tədqiqat işlərində, o cümlədən ixrac fəaliyyətinin təşviqinə və tənzimlənilməsinə məsul olan qurumlar, bu xüsusda ixrac fəaliyyətinin genişləndirilməsində maraqlı olan müəssisə, təşkilatlar tərəfindən istifadə oluna bilər.

Tədqiqatın nəticəsi - Tədqiqatın aparılmasından əldə edilən nəticə göstərir ki, ixrac fəaliyyətinin makroiqtisadi sabitliyin təmin edilməsində rolu olduqca yüksəkdir. Bunun üçün ixrac fəaliyyətinin müxtəlif iqtisadi və institusional metodların köməkliyi ilə tənzimlənməsi qaçınılmazdır və bu hal özlüyündə iqtisadi artıma müsbət təsir edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - İxrac fəaliyyətinin makroiqtisadi sabitliyə təsirinin tənzimlənməsi, investisiya ilə ixracın qarşılıqlı əlaqəsi kontekstində tədqiq edilmiş, yeni strukturda göstərilmişdir.

Açar sözlər: Milli iqtisadiyyat, ticarət dövriyyəsi, ixrac fəaliyyəti, ixracın stimullaşdırılması, dövlət büdcəsi, iqtisadi məşğulluq, investisiya qoyuluşu.

Giriş

Makroiqtisadi sabitlik kompleks iqtisadi yanaşmanı zəruri edən, ayrı-ayrı iqtisadi fəaliyyət sahələrinin bütün komponentlərinin dayanıqlığının təmini şərtləri daxilində reallaşan iqtisadi vəziyyət hesab edildiyindən, burada çoxölçülü yanaşmalardan istifadə zərurət kimi qarşıya çıxır. Xüsusilə son illər dünya bazarında baş verən, qlobal mühitin arzuolunmaz təsirlərindən irəli gələn geosiyasi və geoiqtisadi qeyri-sabitlik halları burada əsas iqtisadi göstəricilər üzrə sabitliyin qorunub saxlanılmasını çətinləşdirir. Bu hal daha çox milli iqtisadiyyatın əsas sahələrinə investisiya qoyuluşlarında, iqtisadi məşğulluq məsələlərində, habelə büdcə gəlirlərinin formalaşmasında daha qabarıq şəkildə öz əksini tapır. Qeyd edilənləri nəzərə alaraq tədqiqat işində ixrac fəaliyyətinin milli iqtisadiyyatda önəminin daha mütərəqqi üsullarla tədqiqi və makroiqtisadi sabitliyin təmin edilməsində ixrac fəaliyyətlərinin tənzimlənməsinin müasir üsul və mexanizmlərinin araşdırılması qarşıya məqsəd qoyulmuşdur.

İxrac fəaliyyətinin makroiqtisadi sabitliyə təsirinə dair nəzəri yanaşmalar

Xarici ticarətin liberallaşmasının genişləndirilməsi kontekstində, beynəlxalq ticarət əlaqələrinin

dərinləşdirilməsi və çoxistiqamətliliyinin təmini iqtisadi artımı sürətləndirmək imkanı vəd etsə də, vəziyyətin stabilliyinin təmin edilməsi heç də qısa müddəti əhatə etmir və tək istiqamətli yanaşma hesabına mümkün olmur. Burada ayrı-ayrı sahələr üzrə səmərəli iqtisadi fəaliyyətin reallaşdırılması üçün sahələrarası əlaqələrin koordinasiya edilmiş şəkildə təşkili obyektiv zərurət kimi çıxış edir. İqtisadi artımın milli iqtisadiyyatda təmininin zəruriliyini və çoxistiqamətliliyini nəzərə alaraq deyə bilərik ki, bu hal dövlətin diqqət mərkəzində olan məsələdir və sahə üzrə öncədən müəyyən edilmiş səmərəli üsulların tətbiqi, o cümlədən mövcud institusional mexanizmlər hesabına həyata keçirilir. Burada səmərəli dövlət proqramlarının, hüquqi aktların və effektiv iqtisadi islahatların qəbulu və ya həyata keçirilməsi istehsal sahələrinin inkişafına və ya reinteqrasiyasına səbəb olur ki, bu da dolayısı ilə məhsul istehsalının yüksəlməsinə və tələbatdan yüksək olan məhsulların ixracının artmasına səbəb olur.

Müxtəlif yerli istehsal imkanları mövcud olan sahələrin inkişafının sürətləndirilməsi üzrə potensialın mövcudluğu, həmin sahələrin dayanıqlı təşkilinə və fasiləsiz rəqabətqabiliyyətli məhsul istehsalına imkan verir ki, bu da daxili tələbi qarşılanan məhsulların bir qisminin xarici bazara çıxarılmasına və bununla da dövlət büdcəsinin müəyyən nisbətdə xarici valyuta ehtiyatlarının formalaşmasına gətirib çıxara bilər. Beləliklə qeyd edə bilərik ki, əslində yerli xammal təminatının geniş olması, həmin xammaldan istehsal edilən məhsulların bir qisminin xarici bazarlarda reallaşdırılması hesabına bu sahədən daxil olan gəlirlərin əhəmiyyətli dərəcədə artmasına nail olmağa imkan verir. İqtisadi nəzəriyyədə bu sahədə Merkantilizm cərəyanının xüsusi yanaşmasının olması fikrimizi təsdiq edir. Belə ki, XV-XVIII əsrdə Qərbi Avropada hakim iqtisadi fikirləri ilə diqqət çəkən Merkantilizmin nümayəndələri, xarici ticarət zamanı ixrac əməliyyatlarının idxaldan yüsək olmasının və maksimum həddə çatdırılmasının (qızıl, qiymətli metallar istisna olmaqla) və bu yolla ölkəyə yüksək həcmdə gəlir gətirilməsinin tərəfdarı idilər. Onların fikrincə, dövlət büdcəsinin xarici bazardan daxil olan gəlirlər hesabına formalaşdırılması iqtisadi fəaliyyət sahələrinin canlanmasına və mütərəqqi istehsal texnologiyasına keçidə şərait yarada bilər. Bu haqda Milos Stojanoviç və İvana Boziç (2023) qeyd edir ki, ixrac ölkənin iqtisadi sərvətinin artmasına müsbət təsir göstərir, xaricdən daxil olan vəsaitlərin axınına səbəb olur. Bunu nəzərə alaraq, milli iqtisadiyyatda xarici ticarət balansının aktiv olmasını, başqa ölkələrdən daha az idxal edib, daha çox ixrac reallaşdırılmasını irəli sürürlər [6, s.70, 79].

Milli iqtisadiyyatın makroiqtisadi sabitliyinin təmin edilməsində ixrac fəaliyyətinin genişləndirilməsinin əhəmiyyətinə diqqət çəkən Dang Trung və Nguyen Thi (2024) ölkənin beynəlxalq bazarda təmsil olunma vəziyyətinin satdığı əmtəə və xidmətlərin ümumi dəyərinin ölçülməsi yolu ilə müəyyən edildiyini qeyd edir. Ölkənin ticarət fəaliyyətinin qiymətləndirilməsi zamanı ixrac fəaliyyətini ölkənin rəqabətqabiliyyətini əks etdirən və onun iqtisadi inkişafına töhfə verən mühüm amil kimi müəyyən edir [5, s.1-2]. Bela Balassa (1978) apardığı tədqiqatlarda ixracın stimullaşdırılmasının iqtisadi sabitliyə səbəb olduğu qənaətində olmuş və müəyyən ölkələrin nümunəsində buna diqqət çəkmişdir. İqtisadçı alim qeyd edir ki, Koreya, Sinqapur və Tayvan kimi yüksək sənayeləşmiş ölkələr ilkin mərhələdə ixracyönümlü siyasətlər qəbul etmişlər. Onlar ixraca mahiyyətcə sərbəst ticarət rejimi tətbiq etmişlər və zamanla ixracın artırılmasına və idxalın azaldılmasına yönəlik əvəz etməyə təşviq edən bəzi əlavə subsidiyalar verilməsini həyata keçirmişlər. Bu yolla müxtəlif sosial-iqtisadi göstəricilərin yaxşılaşması məqsədinə çatmışlar [7, s.183].

Anis Ali və Basel Ali (2023) tədqiqatında qeyd edir ki, ölkənin idxal-ixrac fəaliyyəti müxtəlif yollarla iqtisadiyyat üçün faydalıdır. Bu hal istehsalda və ya xidmət sektorunda beynəlxalq ticarət hesabına ixtisaslaşma qabiliyyətini mümkün qədər yüksəldir. Burada daxil olan gəlirləri artırır və istehlakdan yüksək olan məhsulların daxili bazara çıxarılmasına imkan verir ki, bu da daxili bazarın tənzimlənməsi baxımından əhəmiyyətlidir. İqtisadçı alimlərin fikrincə, ixrac daxili rəqabəti azaldır və valyuta məzənnəsinin stabilləşdirilməsinə səbəb olur. Əmtəə və xidmətlər bazarını genişləndirir, yeni beynəlxalq əlaqələrin qurulmasına imkan verir və milli iqtisadiyyatın nüfuzunu artırır [8, s.1681].

Sayef Bakari (2017) tədqiqatında qeyd edir ki, ixrac sərmayə qoyuluşunun vacib mənbələrindən

biri hesab edilməlidir. İqtisadçı alimin fikrincə, müxtəlif sektorlara sərmayə qoyuluşunun yüksəlməsi iqtisadi artımın sürətlənlənməsinə, işsizlik səviyyəsinin azalmasına və insanların rifahının artmasına kömək edir. Hasilat sənayesinin inkişafı hesabına özünütəminat səviyyəsində artıma nail olmağa şərait yaradı. Yerli istehlak həcmindən yüksək olan məhsullar üzrə ixracın həcminin artırılmasına geniş imkanlar açır. Odur ki, malların və xidmətlərin ixracı gələcəkdə iqtisadi artımı manipulyasiya etmək və yoxsulluğu azaltmaq üçün inkişafın stimulu kimi qəbul edilməlidir. Bundan başqa, ixracın artırılması həm də idxalla əməliyyat aparmaq üçün xarici valyuta axınının mənbəyi kimi çıxış edir [9, s.34-35].

Nərmin Mirzəzadə (2024) vurğulayır ki, ixrac ölkə müəssisələrinin istehsal məhsuldarlığının artmasına və milli iqtisadiyyatın rifahının yüksəlməsinə səbəb olur. Beynəlxalq miqyasda istehlak standartlarına qoyulan tələblərdən irəli gələrək ixrac olunan məhsulların keyfiyyət göstəricilərini və texnoloji inkişaf səviyyəsini artırır [4, s.161-162].

İqtisadçı alimlərin fikirlərinə nəzər saldıqda aydın olur ki, əslində yanaşma baxımından heç bir iqtisadçının fikri digərlərinin yanaşmasını təkzib etmir. Əksinə, məsələyə müxtəlif prizmalardan baxıldığını və milli iqtisadiyyatın makroiqtisadi sabitliyinin qorunub saxlanılması üçün xarici ticarətin ixrac fəaliyyətinin səmərəliliyinin artırılmasının olduqca vacib olduğu aşkara çıxır.


İxrac fəaliyyətinin təşkilinə təsir edən amillər və ixracın əsas makroiqtisadi göstəricilərin yaxşılaşmasında rolu

İxrac fəaliyyətinin ayrılıqda makroiqtisadi sabitliyə təsirinə diqqət etdiyimizdə aydın olur ki, bu vacib fəaliyyət əslində makroiqtisadi artıma müxtəlif istiqamətli müsbət dəyişik vəd edir. İxracın əsas makroiqtisadi göstəricilərin dəyişməsində təsir dairəsi iki istiqamət üzrə: birbaşa, dolayı formada özünü göstərir. İxrac fəaliyyətinin əsas makroiqtisadi göstəricilərin yaxşılaşması sahəsində milli iqtisadiyyata verdiyi üstünlükləri ümumən qeyd etsək buraya dövlət büdcəsində, investisiya qoyuluşunda, əsas kapitalın yenilənməsində, texniki-təminat imkanlarının yaxşılaşmasında, iqtisadi məşğulluğun yüksəlməsində, orta əməkhaqlarının artmasında, məhsulun istehsalının həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yaxşılaşmasında əldə edilən üstünlüklər aid edilə bilər.

Ölkəmizin əlverişli coğrafi mövqeyi, onun əsas ticarət yolları üzərində yerləşməsi habelə son illər qurulan, beynəlxalq normalara cavab verən yol infrastrukturunun təşkili təkcə rezidentlər tərəfindən daxili daşımaların həyata keçirilməsinə deyil, həmçinin qeyri-rezidentlər üçün xarici yükdaşımalar üzrə cəlbediciliyi artırmışdır. Son illər ölkəmizdə müasir tələblərə cavab verən daha qısa marşrutlar üzrə yolların bərpası, yenidən qurulması ticarət fəaliyyəti ilə məşğul olan xarici ticarət iştirakçılarının maraqlarını təmin edir. Bu yolla istər ölkəmizdə istehsal olunmuş məhsulların ixracına, istərsə də digər mənşə ölkələrindən gələn məhsulların ölkəmizdən keçid kimi istifadə edilmək yolu ilə beynəlxalq bazarlara çıxarılmasına müsbət təsir etmişdir. Bu hal təkcə quru, avtomobil yüklərinin daşınmasında deyil, həmçinin müasir dəmir yolu xətlərinin, o cümlədən boru xətlərinin inşası məsələlərində də öz əksini tapmışdır. Beləliklə, ölkəmizdə son illərdə ixrac fəaliyyətinin reallaşdırılması üçün ilkin şərt hesab olunan nəqliyyat kommunikasiyası üzrə ciddi irəliləyişlərə nail olunduğunu deyə bilərik.

İxrac fəaliyyətinin genişləndirilməsinin milli iqtisadiyyat üçün önəminə və bu sahədə dövlət tərəfindən yaradılan infrastruktur imkanlarının mövcudluğuna nəzər yetirdikdən sonra, ölkəmizdə ixrac fəaliyyətinin bilavasitə təsiri ilə əsas makroiqtisadi göstəricilərdə hansı istiqamətli dəyişikliklərin olduğunu müəyyən etmək əhəmiyyətlidir. Diaqram 1-in məlumatlarından aydın olur ki, baza ili ilə müqayisədə sonrakı illərdə əsas növ makroiqtisadi göstəricilərdə müəyyən istiqamətli dəyişikliklər baş vermişdir. Ayrı-ayrılıqda baxdığımızda 2015-ci il ilə müqayisədə 2023-cü ildə ixrac əməliyyatlarının kəmiyyətinin təqribən 2.7 dəfə, ticarət dövriyyəsinin 2.3 dəfə, büdcə gəlirlərinin 2.0 dəfə, investisiya qoyuluşunun 59.9%, ÜDM-in həcminin 2.3 dəfə artdığını müəyyən edirik.

Baza ili ilə müqayisə olunduğu zaman yalnız 2020-ci ildə büdcə gəlirləri xaicində bütün göstəricilər üzrə qismən azalmanın baş verdiyini görürük. Bu hal həmin dövrdə qlobal iqtisadi mühitdə baş verən, Covid-19 pandemiyasının arzuolunmaz təsirindən irəli gələn hallarla bağlı olmuşdur.



Diaqram 1. Milli iqtisadiyyatın əsas makroiqtisadi göstəricilərinin dəyişmə dinamikası, mln manat ilə

Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.


Baş verən artımların istiqamətinə baxdıqda burada ixracdakı dəyişikliklər ilə digər əsas makroiqtisadi göstəricilər arasında müəyyən əlaqənin olduğunu müəyyən etmiş oluruq. Əlbəttə, yalnız bu halı qiymətləndirməklə deyə bilmərik ki, digər əsas makroiqtisadi göstəricilərdə baş verən dəyişikliklər ixracın həcmindəki dəyişikliklər hesabına baş verir. Burada sözügedən iqtisadi göstəricilərin artmasına təsir edən onlarla digər halları ayırd etmək mümkündür. Ancaq bununla belə ixracda baş verən dəyişikliyin əsas makroiqtisadi göstəricilərdə baş verən dəyişikliklərlə əlaqəsinin olub-olmamasını və ya burada mövcud olan əlaqənin gücünü müəyyən etmək məqsədilə korrelyasiya analizinin aparılmasına ehtiyac vardır. Öncədən qeyd etdiyimiz kimi ixrac fəaliyyətlərindən gələn gəlirlərin həcmi nə qədər yüksək olarsa, bu zaman büdcə daxilolmalarında stabilləşmə baş verər.

İxrac fəaliyyətinin genişləndirilməsinin investisiya qoyuluşuna təsirinin empirik, diaqnostik metodlarla təhlili

Artan büdcə gəlirləri hesabına müəyyən sahələrə investisiyalar edilir ki, bu da həm əsas kapitalın yenilənməsinə, həm daha keyfiyyətli və yüksək həcmdə məhsul istehsalına imkan verir. İqtisadi məşğulluğun artırılması hesabına əhalinin yaşayış standartlarının yüksəlməsinə, o cümlədən genişlənən məhsul istehsalı fonunda ÜDM-in xüsusi çəkisinin artmasına səbəb olur. Beləliklə, aydın olur ki, əslində ixracın əsas makroiqtisadi göstəricilərə dolayı təsiri bilavasitə büdcə gəlirlərinin artması fonunda investisiyaların ayrı-ayrı sahələrə yönəlik həcminin yüksəlməsi ilə izah olunur.

Məhz bu səbəbdən ixrac kəmiyyəti ilə ölkə iqtisadiyyatına yönəlik investisiyaların qarşılıqlı əlaqəsini müəyyən etmək məqsədilə hər iki iqtisadi parametr arasında əlaqənin təsirini qiymətləndirmək əhəmiyyətlidir. Məlumat üçün qeyd edək ki, təhlilin aparılması zamanı ölkə üzrə müvafiq illər üzrə ümumi investisiyaların həcmi əsas götürülmüşdür. Belə ki, ixrac xarici ticarət fəaliyyəti hesab edildiyindən burada xarici invetisiyaların cəlb edilməsində onun əhəmiyyətli rolu vardır. Odur ki, təhlil zamanı daxili və xarici investisiyaların asılı dəyişən kimi götürülməsi məqsədəuyğun hesab edilmişdir.


Təhlil zamanı əsas və asılı dəyişənlər arasında əlaqənin mövcudluğunu müəyyən etmək məqsədilə xətti diaqrama nəzər yetirək.



Diaqram 2. İxrac və investisiya göstəriciləri arasında əlaqənin müəyyən edilməsi üzrə xətti diaqram

Mənbə: DSK-nın illik hesabatları əsasında Gretl statistik proqramlaşma proqramından istifadə etməklə müəllif tərəfindən hazırlanmışdır.

Diaqram 2-nin zaman axımı üzrə quruluşu bizə 2022-ci ilədək hər iki göstərici arasında düz mütənasib əlaqənin olduğunu, 2023-cü ildə yəni hesabat ilində isə əlaqənin tərs mütənasib şəkil aldığını göstərir. Ümumilikdə diaqramın əksər zaman aralığında bir-birilə düz mütənasib şəkildə əlaqədə olması bizə müstəqil (ixrac) və asılı dəyişən (investisiya) arasında düz mütənasib əlaqənin olduğu fikrini verir. Təhlilin dolğunluğunu, konkretliyini təmin etmək məqsədilə diaqram 3-də hər iki göstərici arasında əlaqənin təsirinə, gücünə baxmaq vacibdir.



Diaqram 3. İxrac və investisiya göstəriciləri arasında korrelyasiya əlaqəsinin müəyyən edilməsi üzrə xətti diaqram

Mənbə: DSK-nın illik hesabatları əsasında Gretl statistik proqramlaşma proqramından istifadə etməklə müəllif tərəfindən hazırlanmışdır.

Xətti diaqram üzrə səpələnmə bizə onu göstərir ki, öncəki dövlərdə göstəricilər trend xəttinə daha yaxın olmuşlar. Daha sonra mərkəzi trend xəttindən bir qədər uzaqlaşılmışdır. Bu hal bizə onu deməyə əsas verir ki, bu iki göstərici arasında ilk vaxtlar daha güclü əlaqə olsa da, sonrakı vaxtda bir qədər təsir gücü zəifləmiş və kənarlaşmalar baş vermişdir. Odur ki, təhlilin sonrakı, gələcək illər üzrə aparılması vacibdir. Məhz bu yolla hər iki göstərici arasında təsirin zəifləməsini, azalmasını və nə zaman artma ilə əvəzləndiyini (və ya zəifləmənin yüksəldiyini) müəyyən etmək olar. Odur ki, təhlilin sonrakı vaxtlarda da müşahidələr əsasında aparılması zərurət kimi ortaya çıxır. Müvafiq ilkin analiz metodlarından istifadə etdikdən sonra proqram təminatının köməkliyi ilə əvvəlcədən emal etdiyimiz məlumatların təhlil nəticələrinə nəzər yetirək. Təhlilin nəticələrinə keçməzdən öncə məlumat üçün qeyd edək ki, təhlil Ən Kiçik Kvadratlar (Ordinary Least Squares) modeli əsasında aparılmışdır. Yuxarıda qeyd edilən T- seçilən zaman aralığını, başqa deyimlə seçilmiş, təhlil aparılmış illərin sayını göstərir. Təhlildə asılı dəyişən qismində investisiya, müstəqil dəyişən qismində isə ixrac fəaliyyəti götürülmüşdür. Alınan analizin göstəricilərinə baxdığımızda sabit (const) koefisiyentin 17768.7 olduğunu müəyyən etmiş oluruq. Bu, o deməkdir ki, müstəqil dəyişən, yəni ixrac (exports) sıfır olduğu dövrdə belə asılı dəyişən investisiya təxminən 17768.7 səviyyəsində olacaqdır. Analiz nəticəsi, həmçinin göstərir ki, ixrac (export) koefisiyenti 0.356202-dir.

Model 1: OLS, using observations 2015-2023 (T = 9)
Dependent variable: investment

	Coefficient	*Std. Error*	*t-ratio*	*p-value*	
const	17768.7	1402.63	12.67	<0.0001	***
export	0.356202	0.0618456	5.760	0.0007	***

Mean dependent var	25233.74	S.D. dependent var	3604.222
Sum squared resid	18108570	S.E. of regression	1608.396
R-squared	0.825751	Adjusted R-squared	0.800858
F(1, 7)	33.17231	P-value(F)	0.000692
Log-likelihood	−78.08647	Akaike criterion	160.1729
Schwarz criterion	160.5674	Hannan-Quinn	159.3217
Rho	−0.196584	Durbin-Watson	1.729591

Mənbə: Gretl statistik proqramlaşma proqramından istifadə etməklə müəllif tərəfindən hazırlanmışdır.

Bu hal ixracın 1 vahid artması vəziyyətində investisiyanın 0.3562 vahid artacağını göstərir. Alınan nəticə ixrac ilə investisiya arasında müsbət, düz mütənasib bir əlaqənin mövcudluğunu deməyə əsas verir. Təhlilin statistik cəhətdən əhəmiyyətli olub-olmamasını öyrənmək üçün p dəyərinə diqqət etsək görərik ki, hər iki göstərici üzrə bu kəmiyyət 0.05-dən kiçikdir ((sabit (const) <0.0001 və ixrac üçün <0.0007)). Belə olan halda dəyişənlərin statistika cəhətdən əhəmiyyətli olduğunu qəbul etmək olar. Bu hal bizə ixracın investisiyaya təsiri olmadığına dair null hipotezini rədd etməyə imkan verir. Modelin uyğunluğuna nəzər edərkən aydın olur ki, R-kvadratı (R-squared = 0.825751) minimum göstəricidən əhəmiyyətli dərəcədə yüksəkdir. Alınan nəticə investisiyadakı variansın təxminən 82.6%-nin model tərəfindən izah olunduğunu deməyə əsas verir. Bu da göstəricilərin modelə uyğunluğunu göstərir.

Qalıqların cəmi göstəricisi (Sum Squared Residuals = 18108570) kifayət qədər əhəmiyyətlidir. Alınan nəticə bizə model tərəfindən izah edilməyən investisiyanın dəyişkənliyinin cəmini göstərir. Reqressiya Standart Xətası (S.E. of regression) 1608.396 kimidir. Bu göstərici müşahidə olunan qiymətlərin reqressiya xəttindən ortalama hansı məsafədə dayandığını göstərir və ya ölçür. Modelin diaqnostikasından alınan nəticə göstərir ki, F-statistik kəmiyyəti (F(1, 7) = 33.17231) modelin statistik olaraq əhəmiyyətli olduğunu ifadə edir. F-statistikasının p-dəyəri (0.000692) isə göstərir ki, modeldəki ən azı bir proqnoz dəyişəni investisiyaya əhəmiyyətli dərəcədə bağlıdır.

Diaqnostik təhlilin digər göstəricisi olan Durbin-Watson statistik göstəricisi 1.729591-yə bərabərdir. Alınan nəticə 2-yə olduqca yaxın bir göstərici olduğundan reqressiya analizində qalıqlar

arasında autokorrelyasiyanın əhəmiyyətli dərəcədə kiçik olduğunu deməyə əsas verir. Təhlilin aparılmasından alınan nəticələri ümumiləşdirsək deyə bilərik ki, Ən Kiçik Kvadratlar Modeli (OLS) əsasında apardığımız reqressiya analizinə əsasən ixrac ilə investisiya arasındakı müsbət və əhəmiyyətli bir əlaqə mövcuddur. Alınan R kvadratı göstəricisi ixracın investisiya dəyişkənliyinin əhəmiyyətli bir hissəsini izah etdiyini aşkara çıxarır. Ancaq bununla belə gələcəkdə bu sahədə daha geniş tədqiqat apararaq digər təsir edən amillərin də təsir gücünü araşdırmaq və təhlili davam etdirmək faydalı olar.

Nəticə

Apardığımız təhlilin nəticəsi göstərir ki, milli iqtisadiyyatın əsas makroiqtisadi göstəricilərinin yaxşılaşması ilə ixracın həcminin artması arasında düz mütənasib bir əlaqə mövcuddur. İlk diaqramın təhlili zamanı burada həm ixracın, həm də əsas makroiqtisadi göstəricilərin müvafiq illər üzrə artdığını müşahidə etdik. Ancaq bununla belə bu hala təsir edən digər onlarla amilin mövcudluğunu nəzərə aldığımızda, təhlilin müəyyən diaqnostik metodların köməkliyi ilə düzgünlüyünün yoxlanılmasının məqsədəuyğun olduğu qənaətinə gəldik. Odur ki, təhlilin aparılması üçün ən kiçik kvadratlar modelindən istifadə edilməsi məqsədəuyğun qəbul edildi. Modelin köməkliyi ilə apardığımız təhlil göstərmişdir ki, əsas makroiqtisadi göstəricilərin yüksəlməsində rolu olan investisiyalar ilə ixrac arasında düz və birxətli statistik əlaqə mövcuddur. Artan ixrac mütənasib olaraq investisiyaların yüksəlməsinə səbəb olduğundan, digər əsas iqtisadi göstəricilərin də sonrakı illərdə yaxşılaşması mümkün olmuşdur. Bununla belə, qeyd etməliyik ki, ixracın makroiqtisadi göstəricilərin yaxşılaşmasında vacib rolunu nəzərə alaraq burada müxtəlif tənzimləyici metodlardan istifadəyə ehtiyac vardır. Xüsusilə dövlət siyasəti kontekstində institusional mexanizmlərin yenidən nəzərdən keçirilməsi, ixrac dinamikasını nəzərə almaqla müəyyən monitorinqlərin təşkilinə ehtiyac duyulur. Odur ki, bu sahədə dövlət dəstəyinin və tənzimləməsinin yeni metodlarının işlənilib hazırlanması və ya mövcud olanların günün tələblərinə uyğun optimallaşdırılmasının təşkili olduqca əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli Sərəncamı
2. İxrac nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunu, 24 oktyabr 2004-cü il
3. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22 iyul 2022-ci il
4. N. Mirzəzadə., İxracın iqtisadi artıma təsirinin təhlili, Naxçıvan Muxtar Respublikası 2025, Respublika Elmi Konfransı, s. 160-167
5. T. Dang., Y. Nguyen., Evaluating the impact of macroeconomic instability on export turnover of asean countries, Brazil,Mossoro, 2024, p.9
6. S. Milos., B. İvana., İmpact of imports and exports on economic growth: panel data analysis. Serbia, Belgrad, 2003, vol. 69, № 4 p 69-80
7. B. Bela., H. Johns. Exports and economic growth: further evidence, journal of development economnics, USA. Washington, 1978, vol 5. № 2. 181-189 p. https://doi.org/10.1016/0304-3878(78)90006-8
8. A. Ali., A. Basel., İmports, exports and growth of gross domestic product, relational variability analysis, Saudia Arabia , Prince Sattam Bin Abdulaziz University Journal, 2023, vol 18, № 6, p 1681-1690. doi:10.18280/ijsdp.180604
9. B. Sayef., Relationship between export, import, domestic investment and economic growth in egypt. Journal empirical analysis, euro economica, Tunisia, 2017 vol 36, № 2. 34-43 p
10. https://www.stat.gov.az/source/trade/
11. https://economy.gov.az/az/page/iqtisadiyyat/investisiya
12. https://www.cbar.az/page-41/macroeconomic-indicators

Пари Амирахмед кызы Гасанова
профессор, Бакинский Государственный Университет,
“Экономический” факультет
E-mail: perihesenova80@gmail.com,

Гульнар Гурбан кызы Гусейнова
лектор, Бакинский Государственный Университет,
“Экономический” факультет
E-mail gulnarhuseynova.bsu@gmail.com

Регулирование влияния экспортной деятельности на макроэкономическую стабильность в Азербайджане

Резюме

Цель исследования - Исследовать регулирование влияния экспортной деятельности на макроэкономическую стабильность в Азербайджане с использованием научных, аналитических и статистических методов. Цель — выявить, существует ли корреляция между изменениями объемов экспорта и основными макроэкономическими показателями, а также изучить ее основные социально-экономические последствия.

Методология исследования - Основное внимание в исследовании уделялось использованию как институциональных механизмов, так и анализу статистических показателей. При разработке эмпирической части использовались различные офисные программы, а также программа Gretl для диагностического анализа.

Практическая значимость исследования - Результаты, полученные в результате реализации исследования, могут быть использованы в дальнейших научных исследованиях в данной области, в том числе учреждениями, ответственными за продвижение и регулирование экспортной деятельности, а также предприятиями и организациями, заинтересованными в расширении экспортной деятельности в этом направлении.

Результат исследования - Результаты исследования показывают, что роль экспортной деятельности в обеспечении макроэкономической стабильности весьма высока. По этой причине неизбежно регулирование экспортной деятельности различными экономическими и институциональными методами, что само по себе оказывает положительное влияние на экономический рост.

Оригинальность и научная новизна исследования - Регулирование влияния экспортной деятельности на макроэкономическую стабильность изучено в контексте взаимодействия инвестиций и экспорта и представлено в новой структуре.

Ключевые слова: Национальная экономика, торговый цикл, экспортная деятельность, стимулирование экспорта, государственный бюджет, экономическая занятость, инвестиции.

Pari Amirakhmed Hasanova
professor, Baku State University, Department of Economics
E-mail: perihesenova80@gmail.com,

Gulnar Gurban Huseynova
lecturer, Baku State University, Department of Economics
E-mail: gulnarhuseynova.bsu@gmail.com

Regulation of the impact of export activity on macroeconomic stability in Azerbaijan

Summary

The purpose of the study. To investigate the regulation of the impact of export activity on macroeconomic stability in Azerbaijan using scientific, analytical, and statistical methods. To

reveal whether there is a correlation between changes in the volume of exports and the main macroeconomic indicators and to study its main socio-economic consequences.

Research methodology. During the research, the use of both institutional mechanisms and the use of statistical indicators in the analysis were chosen as the main directions. During the development of the empirical part, various office programs were used, as well as the Gretl program for diagnostic analysis.

The applied significance of the research. The results obtained from the implementation of the research can be used in future research studies in this area, including by institutions responsible for the promotion and regulation of export activity, as well as by enterprises and organizations interested in expanding export activity in this regard.

The result of the research. The result obtained from the research shows that the role of export activity in ensuring macroeconomic stability is very high. For this, the regulation of export activity with the help of various economic and institutional methods is inevitable, and this in itself has a positive effect on economic growth.

Originality and scientific novelty of the research. The regulation of the impact of export activity on macroeconomic stability is studied in the context of the interaction between investment and export, and is shown in a new structure.

Key words: National economy, trade cycle, export activity, export stimulation, state budget, economic employment, investment.